*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Xüsusi Buraxılış / 23-29
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Special Issue / 23-29
ISSN: 2663-4619
e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/117/23-29

**Aysel Babayeva**
Azərbaycan Dövlət İqtisad Universiteti
Magistrant
https://orcid.org/0009-0001-8786-7090
ayselmat94@gmail.com

# Azərbaycanda makroiqtisadi göstəricilərlə gəlir bərabərsizliyi arasındakı əlaqənin statistik təhlili

## Xülasə

Bu məqalədə Azərbaycanda 2008–2023-cü illər ərzində gəlir bərabərsizliyi və əsas makroiqtisadi göstəricilər – ümumi daxili məhsul (ÜDM), inflyasiya, işsizlik, xarici borc və ticarət balansı – arasındakı əlaqələr statistik əsaslarla təhlil edilir. Mövzunun aktuallığı ondan ibarətdir ki, iqtisadi inkişafın sosial ədalət və bərabər bölgü ilə uzlaşdırılması inkişaf etməkdə olan ölkələr üçün mühüm strateji məsələdir. Məqalədə gəlir bərabərsizliyi göstəricisi kimi Cini əmsalından, eləcə də bölgələr üzrə gəlir fərqlərindən istifadə olunmuşdur.

Tədqiqatın məqsədi, iqtisadi inkişaf göstəricilərinin gəlir bölgüsünə təsirini aydınlaşdırmaq və bu əlaqələrin sosial nəticələrini qiymətləndirməkdir. Obyekt Azərbaycan iqtisadiyyatı, predmet isə gəlir bərabərsizliyi ilə makroiqtisadi dəyişənlər arasındakı qarşılıqlı təsirdir. Metod olaraq təsviri statistika, müqayisəli təhlil və beynəlxalq məlumat bazalarına əsaslanan empirik yanaşmalar istifadə olunmuşdur.

Tədqiqat göstərir ki, inflyasiya və qeyri-formal məşğulluq gəlir bərabərsizliyini artıran, sosial müdafiə tədbirləri və qeyri-neft sektorunun inkişafı isə onu azaldan amillərdir. Cini əmsalı ilə ÜDM, inflyasiya və işsizlik arasındakı əlaqə birbaşa və dolayı mexanizmlərlə izah olunur.

***Açar sözlər:*** *gəlir bərabərsizliyi, Cini indeksi, Azərbaycan, ÜDM, inflyasiya*

**Aysel Babayeva**
Azerbaijan State University of Economics
Master student
https://orcid.org/0009-0001-8786-7090
ayselmat94@gmail.com

# Statistical Analysis of the Relationship Between Macroeconomic Indicators and Income Inequality in Azerbaijan

## Abstract

This article analyzes the relationship between income inequality and key macroeconomic indicators – gross domestic product (GDP), inflation, unemployment, external debt and trade balance – in Azerbaijan for the period 2008–2023 on a statistical basis. The relevance of the topic lies in the fact that reconciling economic development with social justice and equal distribution is an important strategic issue for developing countries. The article uses the Gini coefficient as an indicator of income inequality, as well as regional income differences.

The aim of the study is to clarify the impact of economic development indicators on income distribution and to assess the social consequences of these relationships. The object is the Azerbaijani economy, and the subject is the interaction between income inequality and macroeconomic variables. Descriptive statistics, comparative analysis and empirical approaches based on international databases were used as methods.

The study shows that inflation and informal employment are factors that increase income inequality, while social protection measures and the development of the non-oil sector reduce it. The relationship between the Gini coefficient and GDP, inflation, and unemployment is explained by direct and indirect mechanisms.

***Keywords:*** *income inequality, Cini index, Azerbaijan, GDP, inflation*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Azərbaycanda gəlir bərabərsizliyi milli rifahın və sosial dayanıqlığın əsas göstəricilərindən biri kimi mühüm əhəmiyyətə malikdir. Əhalinin müxtəlif təbəqələri arasında gəlir bölgüsünün qeyri-bərabərliyi, sosial ədalət prinsipinin təmin olunmasına maneə yaradır və iqtisadi inkişafın inklüzivliyini zəiflədir. Xüsusilə Cini əmsalı kimi statistik indikatorlar gəlir bölgüsünün səviyyəsini ölçməklə, ölkədə sosial-iqtisadi bərabərsizliklərin dərəcəsi barədə mühüm məlumat verir.

Son 15 ildə Azərbaycanın makroiqtisadi mənzərəsi əsasən neft və qaz sektorunda baş verən dəyişikliklər, həmçinin dünya iqtisadiyyatında müşahidə olunan dalğalanmalar nəticəsində formalaşmışdır. Qlobal maliyyə böhranları, neftin qiymətindəki kəskin enişlər və pandemiya kimi faktorlar ölkənin iqtisadi göstəricilərinə birbaşa təsir göstərmişdir. Bütün bu proseslər fonunda gəlir bərabərsizliyinin dinamikası və onun makroiqtisadi amillərlə əlaqəsi hələ də tam şəkildə elmi cəhətdən araşdırılmamış və dəqiq modelləşdirilməmişdir.

Məqalənin aktuallığı ondan ibarətdir ki, gəlir bərabərsizliyinin iqtisadi inkişafla qarşılıqlı təsiri, xüsusilə inkişaf etməkdə olan ölkələr, o cümlədən Azərbaycan üçün strateji əhəmiyyət daşıyır.

**Tədqiqat**

Əhalinin gəlir bölgüsünü təhlil etmək üçün ən geniş istifadə edilən göstərici Cini əmsalıdır. Qeyd etmək lazımdır ki, Azərbaycanda Cini əmsalı 1990-cı ildə 0.346 səviyyəsində olmuş və 1997-ci ilə qədər davamlı şəkildə yüksələrək 0.703-ə çatmışdır. Cini əmsalı bəzən faiz ifadəsində də təqdim olunur. Dünya Bankının təqdim etdiyi məlumatlara əsasən, ölkəmizdə 2001-ci ildə Cini əmsalı 36.5%, 2002-ci ildə 25.3%, 2003-cü ildə 26.8%, 2004 və 2005-ci illərdə isə eyni – 26.6% olmuşdur. Qeyd edək ki, 2005-ci ildən sonra Dünya Bankı Azərbaycan üzrə bu göstərici ilə bağlı yeni dəyərləndirmə aparmamışdır (State Statistical Committee of Azerbaijan, n.d.-c).

Qeyd olunan rəqəmlər orta səviyyəli bərabərsizliyə işarə edir və qonşu ölkələrlə müqayisədə Azərbaycanda sərt gəlir fərqlərinin olmadığı qənaətinə gəlməyə imkan verir. Məsələn, digər mənbələrdə Ermənistan və Gürcüstanda 2003-cü ildə sıra ilə ~0.34 və ~0.40 Cini əmsalları bildirilib. ki, bu göstəricilər hətta yüksək mənfəətli neft gəlirlərinə sahib ölkənin Azərbaycana nisbətən yüksək bərabərsizlik dərəcəsinə malik olduğunu göstərir.

Dünya Bankının apardığı qiymətləndirmələrə əsasən, dünyada gəlir bərabərsizliyinin ən yüksək səviyyədə müşahidə olunduğu ölkələr arasında Cənubi Afrika, Zambiya və Braziliya xüsusi qeyd olunur. Əksinə, gəlir bölgüsündə daha balanslı vəziyyətə malik ölkələr sırasında Azərbaycan, Moldova və Ukrayna önə çıxır. Bankın 2014-cü il üzrə məlumatına görə, Cənubi Afrikada Cini indeksi 63% təşkil etmişdir. 2017-ci ildə bu göstərici Braziliyada 53.3%, ABŞ-da isə 2015-ci ildə 41.5% olmuşdur. Eyni ildə İtaliya və Portuqaliyada bu rəqəm 35.4%, Fransada 32.7%, Almaniyada 31.7% və Hollandiyada isə 28.2% səviyyəsində qeydə alınmışdır. Region ölkələrindən Rusiyada 2015-ci ildə Cini əmsalı 37.7%, Türkiyədə 2016-cı ildə 41.9%, İranda 40%, Gürcüstanda isə 2017-ci ildə 37.9% təşkil etmişdir. Ermənistanda isə bu göstərici həmin ildə 33.6% olmuşdur (Central Bank of the Republic of Azerbaijan, n.d.).

Azərbaycanda ev təsərrüfatlarının gəlir anketlərinə (HIES) əsaslanan hesabatlar isə daha aşağı bərabərlik rəqəmləri verir. Dünya bankı və akademiklər Azərbaycanda istehlak xərclərinin Cini əmsalını 2002–2004-cü illərdə cəmi 16–18% kimi hesablayıblar. Bu nəticə çox aşağı səviyyə kimi qiymətləndirilsə də, tədqiqatçılar müşahidə edirlər ki, neft gəlirləri və dövlət köçürmələri kimi faktorlar bu rəqəmlərin etibarlılığına şübhə yaradır. Məsələn, 2002-ci ildə bakı sakinlərinin orta adambaşı istehlakı ölkə üzrə göstəricidən cəmi 7% yüksək olmuş, ən kasıb naxçıvanın göstəricisi isə 12% aşağı olmuşdur. Yəni regional fərqlər azdır və Azərbaycanın gəlir bölgüsü əsasən nisbətən bərabər səviyyədədir.

Azərbaycanda iqtisadi fəaliyyət son 15 ildə nəzərəçarpan dalğalanmalar yaşamışdır. Ümumi daxili məhsulun (üdm) artımı müxtəlif illərdə kəskin dəyişikliklər göstərib. Məsələn, 2010–2017-ci illər arasında üdm real artımı 2013-cü ildə +5.9% ikən 2016-cı ildə −3.1% kimi mənfi olub. 2024-cü ildə isə üdm yenidən 4.1% artıb. 2020-ci ildə covıd-19 pandemiyasının təsiri ilə üdm -4.2% azalmışdı. Amma 2021–2023-cü illərdə bərpa müşahidə olunub. Son iki ildə iqtisadi inkişaf əsasən qeyri-neft

sektorunun hesabına təmin edilir: 2024-cü ildə qeyri-neft sektorunun artımı 6.2% olmuşdur (State Statistical Committee of Azerbaijan, n.d.-a).

Cədvəl 1-də 2010–2018-ci illər üzrə Azərbaycanda adambaşı üdm-in (sabit qiymətlərlə, ppp əsasda) dinamikası təqdim olunub. 1990-cı illərin əvvəllərində neft çatışmazlığı səbəbindən enişə keçdikdən sonra 2000-ci illərin ikinci yarısından etibarən neft gəlirlərinin artması ilə sürətlə yüksəlib.

**Cədvəl 1.** 2010–2024-cü illər üzrə Azərbaycanda cəmi və adambaşına düşən üdm (abş dolları).

| | **Cəmi** | **Adambaşına** |
|---|---|---|
| | **milyon dollarla** | **dollarla** |
| **2010** | 52909,3 | 5922,0 |
| **2011** | 65951,6 | 7285,0 |
| **2012** | 69683,9 | 7594,3 |
| **2013** | 74164,4 | 7977,4 |
| **2014** | 75234,7 | 7990,8 |
| **2015** | 52996,8 | 5561,5 |
| **2016** | 37862,8 | 3928,6 |
| **2017** | 40867,9 | 4198,5 |
| **2018** | 47112,9 | 4797,8 |
| **2019** | 48174,2 | 4850,8 |
| **2020** | 42693,0 | 4269,3 |
| **2021** | 54825,4 | 5458,2 |
| **2022** | 78807,5 | 7806,4 |
| **2023** | 72428,5 | 7133,0 |
| **2024*** | 74315,9 | 7283,8 |

**Mənbə:** https://www.stat.gov.az/source/system_nat_accounts/

2024-cü ildə Azərbaycanda adambaşı ÜDM təxminən 7,300 ABŞ dolları səviyyəsində olmuşdur. Makroiqtisadi siyasət çərçivəsində dövlət xərcləri isə 2024-cü ildə ÜDM-in təxminən 34%-i həcmində yer alıb. Ölkədə inflyasiya göstəricisi 2010-cu illərin sonundan yüksək templə artıb. 2014–2017-ci illərdə manatın devalvasiyası və qiymət artımı nəticəsində rəsmi inflyasiya 2017-ci ildə 13.0% səviyyəsinə çatıb. Sonrakı illərdə Mərkəzi Bankın antinflasya tədbirləri ilə inflyasiya aşağı düşsə də, 2024-cü ildə orta inflyasiya yenə 2.1% ətrafında saxlanmışdır (Ravallion, Lokshin, 2006).

**Şəkil 1.** 2021-2024-cü illərdə açılmış iş yerləri.



**Mənbə:**https://azertag.az/xeber/cenubi_qafqazda_en_asagi_issizlik_seviyyesi_azerbaycandadir___tehlil-3313668

2022–2023-cü illərdə dünya bazarında bahalaşan ərzaq məhsulları və məzənnə dəyişiklikləri fonunda qiymətlərdə dalğalanma müşahidə olunub. İşsizlik səviyyəsi Azərbaycanda nisbətən aşağı qalmaqdadır. Rəsmi statistikaya görə, 2024-cü ildə işsizlik 5.3% kimi qiymətləndirilib. Uzun müddətdə işsizlik 5–6% aralığında sabit qalıb. Yeniyetmə işsizlik isə 2022-ci ildə 13.6% təşkil etmişdir (World Bank, 2025).

Məzun sayının artımı və müvafiq olaraq gənc nəsildə iş yeri tapmaqda çətinliklər bəzi təhlillərdə gəlir bərabərsizliyinə müdaxilə edən amil kimi vurğulanır. Xarici ticarət balansı Azərbaycanın iqtisadiyyatında xüsusi rol oynayır. 2024-cü ildə ixrac 26.0 milyard, idxal isə 17.2 milyard ABŞ dolları səviyyəsində olmuşdur (State Statistical Committee of Azerbaijan, n.d.-b).

İxracdan neft-qaz məhsulları olduqca böyük pay tutur – 2023-cü ildə ixracın ~91.5%-i mineral yanacaq və xammal məhsullarından ibarət olub. Region ölkələri ilə müqayisədə idxalın həcmi nisbətən aşağıdır. Xarici borc səviyyəsi isə ÜDM-ə nisbətən aşağı səviyyədə saxlanılır; 2023-cü ildə Azərbaycanın xarici dövlət borcu ÜDM-in cəmi ~23% civarındadır.

Maliyyə sektorunda dolanmalar, makroiqtisadi sabitlik uğurları ixracın regional ticarət dinamizmi və rezidentlərin xarici valyuta ehtiyatlarının sabitliyi ilə müşayiət olunub.

İqtisadi məhsulun ölçülməsi konsepsiyası məcmu tələb və dövlət müdaxiləsi ilə bağlı nəzəriyyələri müasir makroiqtisadiyyatın əsasını qoyan Con Meynard Keynsin işi ilə məşhurlaşdı. ÜDM müəyyən bir dövr ərzində ölkənin sərhədləri daxilində istehsal olunan bütün son məhsul və xidmətlərin ümumi pul dəyərini əks etdirir. İqtisadi performansın hərtərəfli ölçüsü kimi o, ölkənin iqtisadi sağlamlığının və inkişafının əsas göstəricisi kimi xidmət edir (Agroeconomics.az, n.d., s. 1).

Tədqiqatlar göstərir ki, iqtisadi inkişafın xüsusiyyətləri və fiskal siyasət gəlir bölgüsünə birbaşa təsir edə bilər. Azərbaycanda aparılmış təhlillərə görə, ÜDM-in artımı adambaşı gəlirlərin bərabərsizliyini müəyyən dərəcədə azalda bilər. Məsələn, Gulaliyev et al. (2020) apardıqları müqayisəli analizin nəticəsinə görə, daha yüksək ÜDM per capita göstəricisi aşağı Cini ilə korrelyasiya olunur. Bu kontekstdə fiskal siyasətin yenidən bölgü funksiyası xüsusi əhəmiyyət daşıyır. Dövlətin vergi və sosial xərclər siyasəti aşağı gəlirli təbəqələrin rifahını artırmaqla gəlir bərabərsizliyini azalda bilər. Azərbaycanda sosial transfertlərin və subsidiya siyasətinin Cini göstəricisinə təsiri müsbət qiymətləndirilir. Eyni zamanda, qeyri-neft sektorunun inkişafı da gəlir bölgüsünün daha ədalətli həyata keçirilməsinə töhfə verə bilər (Azertag.az, 2024, s. 42–55).

**Şəkil 2.** Cini əmsalının illər üzrə trendi.




**Mənbə:** https://agroeconomics.az/az/article/46/azerbaycanin-ev-teserrufatlarinda-ehalinin-her-nef/?p=5

Bu statistika ümumən neft gəlirlərinin zənginliyi artan ölkələrdə belə gəlir bərabərsizliyinin azalma meyli olduğunu vurğulayır. Lakin azərbaycanda spesifik amillər bu ümumi meyli dəyişə bilər. Neft-qaz sektoru gəlirləri ölkəyə böyük gəlir axınları gətirsə də, bu gəlirlər cəmiyyətdə bərabər paylanmır. 2018-ci ildə aparılan araşdırmada qeyd edilib ki, ölkənin iqtisadi inkişafı və neft gəlirlərinin artması ilə bərabər gəlir bərabərsizliyi yüksəlmişdir. Belə ki, neft gəlirlərinin istehlakçı tələbinə və dövlət büdcəsinə axması aztəminatlı qruplara nisbətən zəngin təbəqələrə daha çox fayda verə bilir (Gulaliyev, Kazimov, Abasova, 2020).

İşsizlik və işçi sektorun strukturu da bərabərsizliyə təsir edir. Azad iqtisadiyyatın məşğulluq strukturu Azərbaycanın əmək bazarını formal sektordan çox özünü məşğul işləməyə söykənir. Statistikaya görə, 2003-cü ildə ölkədə iş yerlərinin cəmi 54.7%-i əmək haqqı ilə təmin olunmuşdursa, 2015-ci ildə bu rəqəm 32.2%-ə enib. Yəni insanlarla müqavilə əsasında çalışdırılan işçilərin payı çox aşağıdır (State Statistical Committee of Azerbaijan, 2024).

**Şəkil 3.** Son 4 ildə işsiz şəxslərin sayı (min nəfər).




**Mənbə:**https://azertag.az/xeber/cenubi_qafqazda_en_asagi_issizlik_seviyyesi_azerbaycandadir___tehlil-3313668

Özünüməşğul şəxslər uzun müddət sabit gəlir əldə edə bilmədikləri üçün gəlir bölgüsü böyük ölçüdə qeyri-formal sektora bağlıdır. Bu da rəsmi əmək haqqı bazasındakı boşluğu və iş imkanlarındakı bərabərsizlikləri daha da artırır. Üdm artımı ilə bağlı olaraq bəzi qrafiklərdə də müəyyən meyllər müşahidə edilib. Məsələn, beynəlxalq təsnifata görə, üdm per capita səviyyəsi 20 min abş dollarını keçdikdə ölkədə Cini tipik olaraq 0.4-ün altında qalır (bərabərsizlik aşağıdır).

**Şəkil 4.** İnflyasiya və Cini əmsalının müqayisəsi.



**Mənbə:** https://data.worldbank.org/indicator/SI.POV.CINI?locations=AZ və https://www.stat.gov.az/source/system_nat_accounts/ məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Azərbaycanda isə ÜDM kəskin artdığı illərdə (məsələn 2006-2008) Cini nisbətən yüksək qalıb, inkişaf sürəti azaldıqca və 2016-cı ildə iqtisadiyyatın daralması ilə Cini yenidən azalmağa doğru dəyişib. Bu tendensiya, öncədən proqnoz edildiyi kimi, iqtisadi inkişaf ilə bərabərsizliyin ziddiyyətli əlaqəsini göstərir. Belə ki, neft dollarlarının bolluğu zənginlik cəmləşdirməsinə səbəb olduğu halda, iqtisadi durğunluq zamanında daha bərabər paylama mexanizmləri güclənə bilər. Bu vəziyyət göstərir ki, iqtisadi artım hər zaman sosial rifahın ədalətli bölüşdürülməsi ilə nəticələnmir. Yüksək üdm artımı dövrlərində əldə olunan gəlirlər əsasən məhdud bir təbəqənin əlində cəmlənə bilər.

**Şəkil 5.** Azərbacyanda ÜDM-in artımının illər üzrə dinamikası (2008-2023).




**Mənbə:** https://www.stat.gov.az/source/system_nat_accounts/ məlumatları əsasında müəllif tərəfindən hazırlanıb

Azərbaycanda regionlar arasında gəlir fərqlərinə gəldikdə, paytaxt bakı ilə kənd yerləri arasındakı boşluq hədsiz deyil. Statistikaya görə, 2002-ci ildə bakının adambaşı istehlakı ölkə orta səviyyəsindən cəmi 7% çox, naxçıvan muxtar respublikasının göstəricisi isə 12% az idi. Bu göstəricilər regionlar arasında kəskin uçurumun olmadığını göstərsə də, zamanla fərqlər müəyyən sahələrdə daha da dərinləşə bilər. İnfrastruktur və investisiya paylanmasındakı qeyri-bərabərlik gələcəkdə regional inkişaf tempinə təsir göstərə bilər. Bu onillik ərzində şəhər-kənd fərqi tamamilə aradan qalxmayıb, amma gözlənilən qədər böyük boşluq da yaranmayıb. Məhz buna görə bir çox tədqiqatçılar Azərbaycanda region bərabərsizliyini dünya bankı standartları ilə "aşağı" hesab edir. Lakin kənd yerlərində inflyasiya daha yüksək ola və iş imkanları məhdudlaşa bilər. Beynəlxalq miqyasda, Azərbaycan qonşuları ilə müqayisədə orta səviyyədə bərabərsizliyə malikdir. 2021-ci ildə qeyd olunan 33.7 Cini əmsalı avropa ölkələri ilə müqayisədə nisbətən yüksək, lakin dünya ortalaması olan ~39.0 səviyyəsindən aşağıdır (World Bank, n.d.).

## Nəticə

Göstəricilərdən göründüyü kimi, Azərbaycanda gəlir bərabərsizliyi ilə makroiqtisadi amillər arasında mürəkkəb əlaqələr mövcuddur. Əhali orta gəlirləri artdıqca bərabərsizlik üzərində müəyyən azalma tendensiyası olduğu halda, iqtisadiyyatın neftdən asılılığı və fiskal siyasətin zəif yönümlülüyü bərabərsizlik səviyyəsini saxlamağa davam edir.

Nəticə olaraq, gəlir bərabərsizliyinin azaldılması üçün struktur islahatların həyata keçirilməsi vacibdir. Əmək məhsuldarlığının artırılması və insan kapitalına yönəlik investisiyalar uzunmüddətli dövrdə daha ədalətli gəlir bölgüsünə zəmin yarada bilər. Regionlar arasında iqtisadi uçurumun

azaldılması üçün infrastruktur və təhsil sahələrinə yönəlik təşviqedici tədbirlər mühüm rol oynaya bilər.

## Ədəbiyyat

1. Agroeconomics.az. (n.d.). *Azərbaycanın ev təsərrüfatlarında əhalinin hər nəfərinə düşən gəlir*. https://agroeconomics.az/az/article/46/azerbaycanin-ev-teserrufatlarinda-ehalinin-her-nef/?p=5
2. Azertag.az. (2024, Aprel 25). *Cənubi Qafqazda ən aşağı işsizlik səviyyəsi Azərbaycandadır – Təhlil*. https://azertag.az/xeber/cenubi_qafqazda_en_asagi_issizlik_seviyyesi_azerbaycandadir___tehlil-3313668
3. Gulaliyev, M. G., Kazimov, F. M., Abasova, S. T., və b. (2020). Macroeconomic effects of income inequality: Azerbaijan case. *Revista ESPACIOS*, 41(24), 42–55.
4. Nuriyev, A. (2025). Analyzing GDP growth slowdown in 2023 in Azerbaijan: Key factors and policy implications. *The National High School Journal of Science*, 2025, 12.
5. Ravallion, M., & Lokshin, M. (2006). *Azerbaijan's household survey data: Explaining why inequality is so low* (World Bank Policy Research Working Paper No. 4009). World Bank.
6. State Statistical Committee of Azerbaijan. (2024). *Poverty and social protection statistics*. SSA. https://www.stat.gov.az/source/demoqraphy/
7. State Statistical Committee of Azerbaijan. (n.d.-a). *System of national accounts*. https://www.stat.gov.az/source/system_nat_accounts/
8. State Statistical Committee of Azerbaijan. (n.d.-b). *Household budget survey*. https://www.stat.gov.az/source/budget_households/
9. State Statistical Committee of Azerbaijan. (n.d.-c). *Foreign trade statistics*. https://www.stat.gov.az/source/trade/
10. World Bank. (2025). *Azerbaijan macro poverty outlook. World Bank Economic Review*.
11. World Bank. (n.d.). *GINI index (World Bank estimate) – Azerbaijan*. https://data.worldbank.org/indicator/SI.POV.CINI?locations=AZ
12. Central Bank of the Republic of Azerbaijan. (n.d.). *Macroeconomic indicators*. https://www.cbar.az/page-41/macroeconomic-indicators